UOT 94(479.24); UOT 930:314

ŞƏFAYƏT FƏRƏCOV
Bakı Dövlət Universiteti, "Dünya azərbaycanlıları tarixi" tarixi-demoqrafiya ETL-nin aparıcı elmi işçisi, t.ü.f.d.
shefayetnuvedi@list.ru

HİKMƏT ƏHMƏDOV
Bakı Dövlət Universiteti, böyük elmi işçi, t.ü.f.d.
hikmetakhmedov@bsu.edu.az

XIX-XXI ƏSRİN BİRİNCİ ONİLLİYİNDƏ QƏRBİ AZƏRBAYCANIN TARİXİ- DEMOQRAFİYASI

DOI: https://doi.org/10.36719/2708-065X/107/290-294

Məqalədə XIX-XXI əsrlərdə Qərbi Azərbaycan ərazisində keçirilən siyahıyaalmalar əsasında əhalinin demoqrafik vəziyyətinə həsr olunub. XIX əsrdə ölkəmiz ərazisində aparılan siyahıyaalmalarda rus işğalı nəticəsində ərazilərimizdə baş verən miqrasiya prosesləri, Rusiya hökmranlığı dövründə Qərbi Azərbaycana köçürülüb gətirilən ermənilərin və digər əcnəbilərin sayı, bu köçmələrin sayəsində etnosiyasi və etnodemoqrafik vəziyyətin əsaslı dəyişməsi, bu dəyişmələrin nəticəsində etnik ərazilərin, əhalinin etnik tərkibinin dəyişdirilməsi problemi elmi araşdırılır.

Açar sözlər: əhali, inzibati-ərazi bölgüsü, milli, qəza, dairə, bələdiyyə, qəsəbə, kənd, kənd soveti, şəhər, şəhər soveti, inzibati mərkəz, əhalinin siyahıyaalınması.

Giriş. Qərbi Azərbaycan əhalisi tarixinin öyrənilməsi həm elmi cəhətdən həm də praktik cəhətdən böyük əhəmiyyətə malikdir. Bu problemin öyrənilməsində XIX-XX-XXI əsrlərin müxtəlif vaxtlarında keçirilən əhali siyahıyaalmaların xüsusi yeri var. Çünki əhali siyahıyaalmaları özlüyündə vacib mənbələrdən sayılır. Əhali sayının dinamikasında, yeni tendesiyaların üzə çıxmasında, demoqrafik proseslərin başa düşülməsində və öyrənilməsində siyahıyaalmalara əsas mənbə kimi istinad edilir. Qeyd etmək lazımdır ki, Qərbi Azərbaycan ərazisində aparılan bütün siyahıyaalmalarda azərbaycanlıların sayını bilərəkdən az göstərirdilər. Doğumun səviyyəsini azaldırdılar, doğulan qız uşaqlarını ümumiyyətlə siyahıya almırdılar. 1941-1945-ci illər Böyük Vətən müharibəsi illəri dövründə Sovetlər birliyinin hər yerində olduğu kimi Qərbi Azərbaycan ərazisində yaşayan azərbaycanlılar arasında da doğumun səviyyəsi çox aşağı idi. Bu onunla izah olunurdu ki, kişilərin əksəriyyəti cəbhədə idi, digər səbəb o idi ki, erməni hakimiyyəti tarixi şəraitdən istifadə edərək azərbaycanlıların sayını qəsdən azaldırdılar. Ona görədə müharibə dövründə və ondan sonrakı dövrlərdə, 1941-1956-ci illər haqda heç bir statistik məlumat yoxdur. Digər bir fakt ondan ibarətdir ki, Ermənistan SSR-dən müharibəyə gedən azərbaycanlılar haqda, onlar arasında ölənlərin, yaralananların , geri qayıdanların haqqında məlumatlar verilmir.

XIX-XXI əsrin birinci onilliyinə Qərbi Azərbaycanın tarixi-demoqrafiyası. XIX-XXI əsrlər Qərbi Azərbaycan tarixində ən tələtümlü, ən çətin, ən faciəli bir dövr olmuşdur. Belə ki, əzəli Azərbaycan torpağı olan İrəvan xanlığı ərazisində saxta "ermənistan" deyilən bir dövlət yaradıldı. Dövlətin yaradılması azərbaycanlıların öz vətənlərindən tamamilə qovulub çıxarılması, azərbaycanlılara qarşı soyqırım törədilməsi, deportasiya olunması, əvəzində ermənilərin başqa ərazilərdən köçürülüb Qərbi Azərbaycan ərazisinə gətirilməsi ilə müşaiyət olundu. Məqalə saxta erməni dövləti yaradılmasına həsr olunub. 195 illik tarixi hadisələr arxiv materialları, dövlət sənədləri əsasında təhlil edilmişdir.

Cədvəl 1.

İrəvan Quberniyası üzrə əhalinin yerləşməsi və etnik tərkibi

İrəvan quberniyasının qəzaları	*Əhalinin ümumi sayı*	*Azərbaycanlılar (nəfər, %)*	*Ermənilər (nəfər, %)*	*Azərbaycanlı imtiyazlı əhali*	*Erməni imtiyazlı əhali*
1	*2*	*3*	*4*	*5*	*6*
İrəvan qzası və İrəvan şəhəri	150.879	77.516	58.148	1501	306

		(51.37%)	(38.54%)		
Aleksandropol qəzası və Aleksandropol şəhəri	165.503	8.104 (4.77%)	141.522 (85.5%)	114	99
Naxçıvan qəzası Naxçıvan və Ordubad şəhəri	100.771	64.151 (63.7%)	34.672 (34.4%)	1267	67
Novobəyazit qəzası və Novobəyazit şəhəri	122.573	34.726 (28.3%)	81.285 (66.3%)	155	32
Sürməli qəzası və İqdır şəhəri	89.055	41.424 (46.5%)	27.075 (30.4%)	558	16
Şərur-Dərələyəz qəzası və Baş Noraşen kəndi	76.538	51.564 (67.4%)	20.726 (27.8%)	1262	29
Eçmiadzin qəzası və Vaqarşabat kəndi	124.237	36.008 (29%)	77.572 (62.4%)	1.011	49
Quberniya üzrə cəmi	829.556	313.493 (37.8%)	441.000 (53.1%)	5.868	618

Mənbə: 2, s.73.

Rusiya çarı I Nikolay 1828-ci il fevral ayının 10-da imzalanmış "Türkmənçay" müqaviləsini 1828-ci il mart ayının 1-də təsdiq edəndən 1 gün sonra "Erməni vilayəti" yaradılması haqda hökm edir. Müqavilə Qacarlar tərəfindən həmin ilin iyul ayında ratifikasiya edildi. İrəvan və Naxçıvan xanlıqlarını Rusiya tituluna daxil edilməsi, bu ərazilərdə yaradılan "Erməni vilayətinin" quruluşu, idarə edilməsi Qaydasını senata lazımı fərmanlarla bildirəcəyini elan edir. Beləliklə Çar Rusyası Şimali Azərbaycanı bütövlüklə zor gücünə öz ərazisinə daxil edir. Qondarma erməni vilayəti İrəvan, Naxçıvan əyalətlərinə və Ordubad dairəsinə bölünür. 1849-cu ildə bu mahalın adı dəyişdirilərək Yerevan Quberniyası adı verilmişdir.

Rusiya imperiyası tərkibində Şimali Azərbaycan yaradıldıqdan (1859) sonra onun inzibati ərazisinə müxtəlif xalqların və milli azlıqların nümayəndələri daxil edilmişdi. XIX, XX və XXI əsrlər boyunca baş vermiş sosial-iqtisadi və siyasi proseslər, müharibə və sovet rejiminin milli azlıqlara münasibətdə apardığı ayrı-seçkilik siyasəti də Qərbi Azərbaycan üzrə əhalinin yerləşməsinə, say dinamikasına, demoqrafik vəziyyətinə ciddi təsir göstərən amillərdən biri idi. XIX əsrin birinci yarısında İrəvan xanlığının Rusiya imperiyası tərəfindən işğal olunmasından sonra bu regionda köçürmə siyasəti aktivləşməyə başladı.

N.Şavrovun yazdığı kimi: "biz kolonizator fəaliyyətimizə Zaqafqaziyaya rusların yerləşdirilməsi ilə deyil, xaricilərin yerləşdirilməsi ilə başladıq. Hər şeydən əvvəl Zaqafqaziyaya 1819-cu ildə 500 Vyutemberq almanlarından ibarət ailələri yerləşdirdik ki, bu ailələrdən də biz Tiflis və Yelizavetpol quberniyalarında koloniyalar yaratdıq. Ondan sonra isə 1826-1828-ci illər müharibəsi qurtardıqdan sonra iki ildə 1828-1830-cu illər dövründə biz Zaqafqaziyaya 40 000-dən çox İran ermənisi və 84 600 Türkiyə ermənisini Yelizavetpolun və İrəvan quberniyalarının ən yaxşı dövlət torpaqları ərazisində yerləşdirdik ki, erməni əhalisi Tiflis, Borçalı, Axalsıxı, Axalkələk quberniyalarında olduğu kimi bu ərazilərdə yox dərəcəsində idi" (4, s.27).

"Tarixi mənbələrə əsasən həmin vaxt qeyd edilən Erməni vilayətində 23 700 ailə, o cümlədən İrəvan əyalətində 1700 ailə, Naxçıvan əyalətində isə 4600 ailə yaşamışdır. Nəzərə alsaq ki, orta hesabla hər ailədə 5 nəfər adam olmuşdur, onda bütün ailələrdə mövcud olmuş əhalinin sayının 118500 nəfər olduğu aydınlaşır. Siyahıya alınmanın nəticələrinə görə Erməni vilayətində 81749 nəfər müsəlman və 25131 erməni qeydə alınmışdır" (5, s.87).

Çar Rusiyası Şimali Azərbaycanı tamamilə işğal etdikdən sonra , işğal olunmuş ərazilərlə birlikdə 1897-ci ildə Rusiya imperiyası əhalisinin ilk ümumi siyahıyaalınması həyata keçirildi. Siyahıyaalmanın nəticələrinə görə Şimali Azərbaycanda ümumi əhalinin sayı 1806700 nəfərdi. Onlardan 305100 (Ümumi əhalinin 16,9%) nəfəri şəhərdə, 1501600 (83,1%) nəfəri isə kətdə yaşayırdılar. Qeyd etməliyik ki, kətdə yaşayanların əksəriyyəti azərbaycanlılardı. Erməni əhali əsasən şəhərlərdə, rayon mərkəzlərində yaşayırdılar və əsasən sənətkarlıqla məşğul olurdular.

1897-ci il siyahıyaalmaya görə İrəvan quberniyasında yaşayan əhalinin sayı 728.785 (100%) olmuşdur. Bunlardan azərbaycanlılar 249.025 (34,2%); ermənilər 406.328 (55,8%); kürdlər 48.750 (6,7%); ruslar 12.315 (1,7%); aysorlar 2.856 (0,4%) və digər etnik qruplar yaşamışlar. Quberniyanın mərkəzi İrəvan şəhərində 12.359 (42,6%) nəfər azərbaycanlı, 12.523 (43,2%) nəfəri isə ermənilər olmuşlar. İrəvan şəhərində azərbaycanlıların sayının ermənilərlə eyni olması, baxmayaraq ki, XIX əsrin əvvəllərindən ermənilərin bu əraziyə kütləvi köçürülməsi baş vermişdir, İrəvanın əzəli Azərbaycan ərazisi, şəhəri olmasından xəbər verir.

Ermənilərin ən çox yerləşdirildiyi ərazi Aleksandropol qəzasıdır ki, burada ermənilərin sayı azərbaycanlılara nisətən çox yuxarıdır. Yəni, qəzada yaşayan 165.503 nəfər əhalinin 141.522 (85,5 %) nəfəri erməni, 7.832 (4,7%) nəfəri isə azərbaycanlılardı. Bu onunla izah olunur ki, Türkiyə ilə həmsərhəd olan qəzanın azərbaycanlı əhalisi çar Rusiyasının apardığı antiazərbaycan siyasəti nəticəsində Türkiyə ərazisinə köçmüşlər. Antiazərbaycan siyasəti nəticəsində Şimali Azərbaycanın digər ərazilərindəndən qonşu İrana və Türkiyəyə çox sayda azərbaycanlılar köçüb getmişlər. Təbii ki, bu tendensiya Şimali Azərbaycan əhalisinin kəskin azalmasına səbəb olmuşdur. 1897-ci il materiallarında Zəngəzur qəzasında yaşayan 142 min nəfər əhalinin 71,2 min nəfərinin azərbaycanlılar, 63,6 min nəfərinin isə ermənilər olduğu göstərilmişdir. Dini tərkib barədə materillarda isə quberniyada 350.099 nəfər müsəlman, 439.926 nəfər erməni-qriqorian və erməni-katolik, 1.032 nəfər iudey, 16.398 nəfər pravoslav və digər konfessiyaların (lüteran, baptist v.s.) nümayəndələrinin yaşadığı göstərilir (3, s.189).

Cədvəl 2.

İrəvan Quberniyasının əhalisi (1897)
(ana dili əsasında, Naxçıvan qəzası istisna olmaqla)

	Cəmi	*ermənilər*	*azərbaycanlılar*	*kürdlər*	*ruslar*	*aysorlar*	*ukrainlar*	*yunanlar*	*polyaklar*
İrəvan quberniyası (Naxçıvan qəzası istisna olmaqla)	728.785 (100%)	406.328 (55,8%)	249.025 (34,2%)	48.750 (6,7%)	12.315 (1,7%)	2.856 (0,4%)	2.530 (0,3%)	1.305 (0,2%)	1.231 (0,2%)
İrəvan ş.	29.006 (100%)	12.523 (43,2%)	12.359 (42,6%)	64 (0,2%)	2.765 (9,5%)	81 (0,3%)	398 (1,4%)	28 (0,1%)	190 (0,7%)
İrəvan qəzası (İrəvan şəhəri istisna olmaqla)*	121.873 (100%)	45.625 (37,4%)	65.132 (53,4%)	8.131 (6,7%)	287 (0,2%)	2.207 (1,8%)	254 (0,2%)	4 (0,1%)	6 (0,1%)
Aleksandrapol qəzası	165.503 (100%)	141.522 (85,5%)	7.832 (4,7%)	4.976 (3,0%)	5.672 (3,4%)	34 (0,1%)	1.115 (0,7%)	1.082 (0,7%)	972 (0,6%)
Yenibəyazit qəzası	122.573 (100%)	81.285 (66,3%)	34.726 (28,3%)	2.995 (2,4%)	2.711 (2,2%)	4 (0,1%)	5 (0,1%)	179 (0,1%)	12 (0,1%)
Sürməli qəzası	89.055 (100%)	27.075 (30,4%)	41.417 (46,5%)	19.099 (21,4%)	725 (0,8%)	1 (0,1%)	620 (0,7%)	3 (0,1%)	31 (0,1%)
Şərur-Dərələyəs qəzası	76.538 (100%)	20.726 (27,1%)	51.560 (67,4%)	3.761 (4,9%)	61 (0,1%)	331 (0,4%)	57 (0,1%)	4 (0,1%)	12 (0,1%)
Üçmərz qəzası	124.237 (100%)	77.572 (62,4%)	35.999 (29,0%)	9.724 (7,8%)	94 (0,1%)	198 (0,2%)	81 (0,1%)	5 (0,1%)	8 (0,1%)

Mənbə: 5, s.87.

XIX əsrin ikinci yarısında Qərbi Azərbaycanda ermənilərin sayı kəskin şəkildə artdı. 1853-1856-cı illər Krım müharibəsi, 1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsi bu prosesə ciddi surətdə təsir etdi. Belə ki, 1873-cü il göstəricilərinə görə, İrəvan quberniyasında 221.191 nəfər erməni qeydə alınmışdır. Halbuki, 40 il ərzində, yəni 1828-cildən sonra, həmin ərazidə onların sayı cəmi 81.610 nəfər təşkil etmişdir. Belə çıxır ki, ermənilərin sayı 3 dəfədən artıq çoxalmışdır. Ermənilərin sayca artmasına onların regiona köçürülməsinin davam etdirilməsi də ciddi şəkildə təsir göstərmişdir. Artıq 1886-cı ildə İrəvan quberniyasında ermənilərin sayı 375.700 nəfərə çatmışdır. Tədqiqatçı H.Verdiyeva haqlı olaraq hesab edir ki, "regionda erməni əhalisinin sayca çoxalması təbii artımla deyil, miqrasiya ilə bağlı olmuşdur". Tədqiqatçı İrəvan quberniyasında ermənilərin artım dinamikasını arxiv sənədləri əsasında araşdıraraq 1897-ci ildə buradakı ermənilərin sayı- nın 439.926 nəfərə, 1916-cı ildə isə, bu rəqəmin 669.871 nəfərə çatdığını göstərmişdir. Şimali Azərbaycan ərazisinə ermənilərlə bərabər rus və almanlar da köçürülmüşdür (1, s.57).

1920-ci ildə Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra sosializm quruculuğu başlandı. Ermənistan SSR-in təşkili və 1920-1930-cu illərdə onun siyasi, sosial-iqtisadi və mədəni həyatında baş verən dəyişikliklər əhalinin demoqrafiyasında da öz əksini tapdı. 1926, 1937, 1939, 1959, 1970, 1979 və 1989-cu illərdə əhali siyahıyaalmaları üzrə respublika əhalisi içərisində azərbaycanlıların payı 1926-cı ildə olan 62,1%-dən 1937-ci ildə 58,2%-ə enmişdi. Ermənilərin sayı mütləq şəkildə artmış, ümumi əhali içərisində payı eyni qalmışdı. Rusların sayı 1926-cı ildə 9,5 %-dən, 1937-ci ildə 15,7 %-ə, 1939-cu ildə isə 16,5%-ə çatmışdı. Mərkəzin azərbaycanlıları sıxışdırmaq, respublika ərazi-sinə digər millətlərin və xalqların nümayəndələrini köçürmək siyasətinin nəticəsi olaraq, onların sayı 100-ə çatmış, beləliklə Ermənistan SSR Cənubi Qafqazda monoetnik respublika olmuşdur.

Nəticə. Məqaləni işləyərkən biz belə bir nəticəyə gəldik ki, Qərbi Azərbaycan ərazisində yaşayan azərbaycanlıların sayının az olmasının əsas səbəbi heç də əhalinin təbii artımı ilə deyil, erməni hakimiyyətinin azərbaycanlılara qarşı apardığı siyasətin nəticəsidir. Mövzunu işləyərkən Həcər Verdiyevanın problemə aid yeni tarixi faktlarla zəngin olan "Almanlar Şimali Azərbaycanda" (Bakı, 2009) adlı kitabındakı materiallar əsas götürülmüşdür.

ƏDƏBİYYAT

1. Хаджар Вердиева. Немцы в Северном Азербайджане. Баку, Элм, 2009, 229 с.
2. Семйон Броневкий. Новейшия Географическия и историческия известия о Кавкзе. Москва, 1823, 287 с.
3. Козлов В.И. Национальности СССР: Этнодемографический обзор-2-е изд. М.: Финансы и статистика, 1982, 303 с.
4. Шавров Н.И. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. Баку: Элм, 1990, 156 с.
5. Всеобщая перепись населения населения Российской империи 1897 года. (Губернские итоги). Т.Т.1-89. СПб.: 1903-1905. 151 с.

ШАФАЯТ ФАРАДЖОВ
Бакинский государственный университет,
ведущий научный сотрудник историко-демографической
научно-исследовательской лаборатории «История азербайджанцев мира», д.ф.и.н.

ХИКМАТ АХМАДОВ
Бакинский государственный университет,
старший научный сотрудник, д.ф.и.н.

ИСТОРИЯ И ДЕМОГРАФИЯ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА С XIX ВЕКА ДО ПЕРВОГО ДЕСЯТИЛЕТИЯ XXI ВЕКА

Статья посвящена обзору эволюции этнотерриториальной структуры Западного Азербайджана в связи с миграционными процессами в период русского завоевания и СССР. В пе-

переписях, проведенных на территории нашей страны в XIX веке, были выявлены миграционные процессы, происходившие в результате российской оккупации, численность армян и других иностранцев, переселенных в Западный Азербайджан. Как правило, в результате миграций происходят коренные изменения в этнополитической и этнодемографической ситуации. В статье проблема изменения этнического состава населения на территории Западного Азербайджана в XIX-XXI веках исследуется на основе научных фактов.

Ключевые слова: населения, административно-территориальное деление, национальный состав, уезд, округ, муниципалитет, поселка, село, сельский совет, город, городской совет, административный центр, перепись населения.

SHAFAYAT FARAJOV
Baku State University,
Leading Researcher of the Historical-Demographic Scientific Research Laboratory
"History of World Azerbaijanis", Doctor of Philosophy in History

HIKMET AHMEDOV
Baku State University,
Senior Researcher, Doctor of Philosophy in History

HISTORY AND DEMOGRAPHY OF WESTERN AZERBAIJAN FROM THE XIX TH CENTURY TO THE FIRST DECADE OF THE XXI ST CENTURY

Present article is dedicate to the structural changes in the ethnic region of the western Azerbaijan in the XIX century. During this period, the migration processes in our territories were because of the Russian occupation, the fundamental changes in the ethno-political and ethno-demographic situation due to foreigners resettled in Azerbaijan during the Russian rule, the process of changing ethnic areas, the ethnic composition of the population.

Keywords: administrative-territorial division, national, municipality, township, village, village council, the city, the city council, the administrative center.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 oktyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: t.ü.f.d. Asəf Hacıyev, t.ü.f.d. Məmmədağa Baxışov.